Azərbaycan Respublikası Energetika Nazirliyinin
"27" iyun 2024-cü il tarixli
"3-15/3-2-375/2024" nömrəli Əmri ilə təsdiq edilmişdir.

**Enerji Məsələlərini Tənzimləmə Agentliyi tərəfindən elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində fəaliyyət göstərən müəssisələrin payız-qış mövsümünə hazırlığının monitorinqi**

# QAYDALARI

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar Enerji Məsələlərini Tənzimləmə Agentliyinin (bundan sonra – **Agentlik**) Nizamnaməsinə, Azərbaycan Respublikası Prezidentinin 16.07.2018-ci il tarixli 204 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası"na, habelə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24.02.2020-ci il tarixli 65 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində payız-qış mövsümünə hazırlıq işlərinin aparılması Qaydası"na (bundan sonra – **Mövsümi hazırlıq Qaydası**) uyğun olaraq hazırlanmışdır və Agentliyin filialları (bundan sonra – **Filial**) tərəfindən elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində (bundan sonra – **müvafiq sahə**) fəaliyyət göstərən müəssisələrin və onların məsul subyektlərinin payız-qış mövsümünə hazırlığının monitorinqinin (bundan sonra – **hazırlığın monitorinqi**) aparılması ilə bağlı Agentlikdaxili münasibətləri tənzimləyir.

1.2. Bu Qaydaların məqsədləri üçün aşağıdakı əsas anlayışlardan istifadə olunur:

1.2.1. **monitorinq aktı** – monitorinq edən tərəfindən monitorinqin nəticələri barədə monitorinq aparılan müddətdə bu Qaydaların 4 nömrəli Əlavəsinə uyğun olaraq tərtib edilən sənəd;

1.2.2. **monitorinq edən** – Agentlik adından müvafiq sahədə hazırlığın monitorinqini həyata keçirən və Agentliyin işçisi olan müfəttiş;

1.2.3. **monitorinq olunan** – Agentlik tərəfindən hazırlığın monitorinqinin həyata keçirilməsi nəzərdə tutulan müvafiq sahədə fəaliyyət göstərən müəssisələr və onların məsul subyektləri.

1.3. Bu Qaydalarda istifadə edilmiş digər anlayışlar Mövsümi hazırlıq Qaydasında və digər normativ hüquqi aktlarda təsbit edilmiş mənalarda istifadə edilir.

1.4. Hazırlığın monitorinqinin həyata keçirilməsinin məqsədi müvafiq sahədə payız-qış mövsümündə istehlakçılara göstərilən xidmətlərin keyfiyyətinin və əlçatanlığının daha da artırılmasını, onların etibarlı, fasiləsiz, keyfiyyətli və təhlükəsiz elektrik və istilik enerjisi, habelə qaz ilə təchiz edilməsini, monitorinq olunan tərəfindən müvafiq sahədə normativ hüquqi aktların tələblərinə əməl olunmasını, qanun pozuntularının qarşısının alınmasını və yol verilmiş pozuntuların vaxtında aşkar edilərək aradan qaldırılmasını təmin etməkdir.

1.5. Hazırlığın monitorinqi monitorinq olunanın Mövsümi hazırlıq Qaydası ilə müəyyən edilmiş hazırlıq şərtlərinin yerinə yetirməsi barədə məlumatlarının toplanılması, emalı, təhlili və qiymətləndirilməsindən ibarətdir.

1.6. Monitorinq olunanın payız-qış mövsümünə hazırlıq işlərinin dairəsi Mövsümi hazırlıq Qaydasının 4 – 8-ci hissələri ilə müəyyən olunur.

1.7. Monitorinq edən tərəfindən müvafiq sahədə sahibkarlıq fəaliyyətinin həyata keçirildiyi yerlərə gəlməklə aparılan yoxlama tədbirləri "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun həyata keçirilir.

1.8. Bu Qaydalarla müəyyən edilən sənədləşmə Agentlikdə tətbiq olunan Elektron Sənəd Dövriyyəsi Sistemi (bundan sonra – ESDS) vasitəsilə həyata keçirilir.

## 2. Plan üzrə (növbəti) hazırlığın monitorinqinin təşkili

2.1. Plan üzrə (növbəti) hazırlığın monitorinqinin həyata keçirilməsinin vaxtı və əhatə dairəsi Agentliyin İdarə Heyətinin (bundan sonra – **AİH**) sədri tərəfindən təsdiq edilmiş hazırlığın monitorinqi həyata keçiriləcək monitorinq olunanların siyahısı ilə müəyyən olunur. Həmin siyahı Filiallar tərəfindən hər il noyabr ayının 1-nə (birinə) qədər təqdim olunan, Filialların fəaliyyət ərazisində monitorinq olunanlar barədə məlumatlara əsasən Agentliyin Enerji tənzimləmə və monitorinq departamenti (bundan sonra – **TMD**) tərəfindən hər il noyabr ayının 15-nə (on beşinə) qədər tərtib edilərək təsdiq olunması üçün AİH sədrinə təqdim olunur.

2.2. Monitorinq olunanın növbəti payız-qış mövsümünə hazırlıq üzrə təsdiq edilmiş tədbirlər planının (bundan sonra – **tədbirlər planı**) Agentliyə təqdim edilməsi üçün may ayının ilk 10 (on) günü ərzində monitorinq olunana bildiriş göndərilir.

2.3. Monitorinq edən Filialın fəaliyyət ərazisi üzrə bu Qaydaların 2.1-ci bəndində göstərilən siyahıya uyğun olaraq payız-qış mövsümünə hazırlığın vəziyyətinin qiymətləndirilməsi məqsədilə hazırlığın monitorinqini həyata keçirir.

2.4. Plan üzrə (növbəti) hazırlığın monitorinqi müvafiq sahədən asılı olaraq bu Qaydaların 1, 2 və ya 3 nömrəli Əlavələri ilə müəyyən edilmiş formalara uyğun olaraq Filial rəhbərinin verdiyi qərar əsasında aparılır.

2.5. Filial tərəfindən plan üzrə (növbəti) hazırlığın monitorinqinin həyata keçirilməsi haqqında qərarın surəti müşayiət məktubu ilə birlikdə həmin monitorinqin başlanmasına ən azı 5 (beş) iş günü qalmış ESDS-nin Rəqəmsal Yazışma Paketi (bundan sonra – RYP) funksiyası vasitəsilə monitorinq olunana göndərilir. ESDS üzərindən avtomatik göndərilmə mümkün olmadıqda xəbərnaməli sifarişli poçt vasitəsilə çatdırılma təmin edilir.

2.6. Plan üzrə (növbəti) hazırlığın monitorinqinin başlandığı anda həmin monitorinqin həyata keçirilməsi haqqında qərar monitorinq olunana təqdim edilir.

2.7. Plan üzrə (növbəti) hazırlığın monitorinqinin həyata keçirilməsi mümkün olmadıqda, Filial rəhbəri tərəfindən bu barədə səbəbi göstərilməklə xidməti məktubla TMD-yə məlumat verilir.

2.8. Plan üzrə (növbəti) hazırlığın monitorinqi yalnız onun həyata keçirilməsi haqqında qərarda göstərilən monitorinq edənlər tərəfindən aparılır. Müəyyən səbəblərdən (əmək qabiliyyətinin müvəqqəti itirilməsi, ezamiyyə, məzuniyyət, iş yerinin dəyişdirilməsi, əmək münasibətlərinə xitam verilməsi və digər hallarda) qərarda adları göstərilən monitorinq edənlər plan üzrə (növbəti) hazırlığın monitorinqinin

keçirilməsində iştirak edə bilmədikdə Filial rəhbəri tərəfindən əvvəlki qərar ləğv edilməklə hazırlığın monitorinqinin həyata keçirilməsi haqqında yeni qərar qəbul edilir və həmin qərarda ləğv edilən qərar barədə məlumatlar qeyd olunur. Yeni qərar hazırlığın monitorinqinin başlandığı an monitorinq olunana təqdim edilir.

## 3. Plandankənar (növbədənkənar) hazırlığın monitorinqinin təşkili

3.1. Plandankənar (növbədənkənar) hazırlığın monitorinqi aşağıdakı hallarda həyata keçirilir:

3.1.1. əvvəl həyata keçirilmiş hazırlığın monitorinqinin nəticələri üzrə aşkar edilmiş pozuntuların aradan qaldırılmasına dair icrası məcburi olan göstərişdə qeyd edilən pozuntuların aradan qaldırılması üçün müəyyən edilmiş sonuncu müddət tamam olduqdan sonra 5 (beş) iş günü ərzində həmin göstərişin icra olunduğu barədə məlumat Agentliyə daxil olmadıqda;

3.1.2. Agentliyə hazırlığın monitorinqinin həyata keçirilməsinə əsas verən şikayət daxil olduqda;

3.1.3. Agentliyə monitorinq olunanın hazırlığın monitorinqinin həyata keçirilməsi barədə müraciət ərizəsi daxil olduqda;

3.1.4. mediada və ya sosial şəbəkələrdə yayılan məlumatlar əsasında.

3.2. Bu Qaydaların 3.1-ci bəndində qeyd edilən hallarda plandankənar (növbədənkənar) hazırlığın monitorinqinin həyata keçirilməsi üçün Filial rəhbəri tərəfindən 3 (üç) iş günü ərzində əsaslandırılmış təqdimatla TMD direktoruna müraciət olunur.

3.3. TMD direktoru 3 (üç) iş günü ərzində təqdim olunan müraciətə baxaraq:

3.3.1. əsaslandırma ilə razı olmadıqda səbəbi göstərilməklə imtina edir;

3.3.2. əsaslandırma ilə razı olduqda, plandankənar (növbədənkənar) hazırlığın monitorinqinin həyata keçirilməsinə razılıq verir.

3.4. Bu Qaydaların 3.3.1-ci yarımbəndi ilə müəyyən edilmiş hallarda həmin imtinada göstərilən əsaslar aradan qaldırıldıqdan sonra, Filial rəhbəri yenidən təqdimatla TMD direktoruna müraciət etməlidir.

3.5. Bu Qaydaların 3.3.2-ci yarımbəndi ilə müəyyən edilmiş hallarda Filial rəhbəri 5 (beş) iş günü müddətində plandankənar (növbədənkənar) hazırlığın monitorinqinin həyata keçirilməsi ilə bağlı müvafiq sahədən asılı olaraq bu Qaydaların 1, 2 və ya 3 nömrəli Əlavələri ilə müəyyən edilmiş formalara uyğun olaraq hazırlığın monitorinqinin həyata keçirilməsi haqqında qərar qəbul edir.

3.6. Plandankənar (növbədənkənar) hazırlığın monitorinqi yalnız həmin monitorinqin keçirilməsi üçün əsas olmuş hallar əsasında aparılır.

3.7. Plandankənar (növbədənkənar) hazırlığın monitorinqinin həyata keçirilməsi haqqında qərar monitorinqin başlandığı an monitorinq olunana təqdim edilir.

3.8. Plandankənar (növbədənkənar) hazırlığın monitorinqinin həyata keçirilməsi hər hansı səbəbdən mümkün olmadıqda, Filial rəhbəri tərəfindən TMD-yə bu barədə xidməti məktubla məlumat verilir.

3.9. Plandankənar (növbədənkənar) hazırlığın monitorinqi yalnız onun həyata keçirilməsi haqqında qərarda göstərilən monitorinq edənlər tərəfindən aparılır. Müəyyən səbəblərdən (əmək qabiliyyətinin müvəqqəti itirilməsi, ezamiyyə, məzuniyyət, iş yerinin dəyişdirilməsi, əmək münasibətlərinə xitam verilməsi və digər

hallarda) qərarda adları göstərilən monitorinq edənlər plandankənar (növbədənkənar) hazırlığın monitorinqinin keçirilməsində iştirak edə bilmədikdə Filial rəhbəri tərəfindən əvvəlki qərar ləğv edilməklə hazırlığın monitorinqinin həyata keçirilməsi haqqında yeni qərar qəbul edilir və həmin qərarda ləğv edilən qərar barədə məlumatlar qeyd olunur. Yeni qərar hazırlığın monitorinqinin başlandığı an monitorinq olunana təqdim edilir.

## 4. Hazırlığın monitorinqinin müddəti

4.1. Plan üzrə (növbəti) hazırlığın monitorinqi 20 (iyirmi) iş günü müddətində həyata keçirilir.

4.2. Plandankənar (növbədənkənar) hazırlığın monitorinqi 5 (beş) iş günü müddətində həyata keçirilir.

## 5. Hazırlığın monitorinqinin həyata keçirilməsi və nəticələrinin rəsmiləşdirilməsi

5.1. Monitorinq edən hazırlığın monitorinqinin həyata keçirilməsi zamanı monitorinq olunanın sonuncu payız-qış mövsümündə qüvvədə olan normativlərdən kənaraçıxmaların, qüsurların mövcudluğu haqqında sistemləşdirilmiş məlumatların Mövsümi hazırlıq Qaydasına uyğun tərtib edilməsini, tədbirlər planının hazırlanmasının, təsdiq edilməsinin qanunvericiliyə və inzibati aktlara uyğunluğunu yoxlayır, məlumatların toplanmasını və sistemləşdirilməsini həyata keçirir.

5.2. Monitorinq aktı monitorinq edən tərəfindən iki nüsxədə tərtib olunur və monitorinqin həyata keçirilməsində iştirak edən monitorinq edənlər tərəfindən imzalanır. Monitorinq aktını imzalamış monitorinq edən monitorinq aktındakı məlumatların düzgünlüyünə görə məsuliyyət daşıyır.

5.3. Monitorinq aktında Azərbaycan Respublikası Prezidentinin 27.09.2003-cü il tarixli 935 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat”da qeyd edilənlərlə yanaşı, aşkar olunmuş pozuntuların məzmunu aydın və dəqiq şəkildə göstərilməlidir.

5.4. Monitorinq aktında göstərilən məlumatları təsdiqləyən və hazırlığın monitorinqinin nəticələri üzrə icrası məcburi olan göstəriş tərtib edilməsi üçün əhəmiyyət kəsb edən sənədlər akta əlavə edilir.

5.5. Monitorinq aktı monitorinq edənlər tərəfindən imzalandıqdan sonra monitorinq olunanın rəhbərinə və ya onun səlahiyyətli nümayəndəsinə imzalanmaq üçün təqdim edilir.

5.6. Monitorinq aktının bir nüsxəsi monitorinq olunana təqdim olunur, digər nüsxəsi isə Filialda saxlanılır.

5.7. Monitorinq olunan monitorinq aktını qəbul etməkdən və (və ya) onu imzalamaqdan imtina etdikdə, bu barədə monitorinq edən tərəfindən monitorinq aktında qeydlər aparılır. Bundan sonra monitorinq aktının bir nüsxəsi müşayiət məktubu ilə hazırlığın monitorinqi başa çatdığı tarixdən növbəti 3 (üç) iş günü ərzində ESDS-nin RYP funksiyası vasitəsilə monitorinq olunana göndərilir. ESDS üzərindən avtomatik göndərilmə mümkün olmadıqda xəbərnaməli sifarişli poçt vasitəsilə çatdırılma təmin edilir.

## 6. Məsuliyyət və hesabatlılıq

6.1. Monitorinq aktı rəsmiləşdirildikdən sonra 15 (on beş) iş günündən gec olmayaraq Filial rəhbəri tərəfindən hazırlığın monitorinqi üzrə toplanmış məlumatlar emal və təhlil edilir.

6.2. Filial rəhbəri tərəfindən payız-qış mövsümünə hazırlığın qiymətləndirilməsi zamanı Mövsümi hazırlıq Qaydasının 12.2 – 12.10-cu bəndlərində göstərilmiş qruplar üzrə hazırlıq şərtlərinin qiymətləndirilməsi meyarlarından istifadə edilir.

6.3. Filial rəhbəri tərəfindən monitorinq olunanın payız-qış mövsümünə hazırlığının qiymətləndirilməsinin nəticəsi barədə bu Qaydaların 6.1-ci bəndində göstərilən müddət bitdikdən sonra 3 (üç) iş günü ərzində TMD-yə məlumat verilir.

6.4. Aşkar edilmiş pozuntuların aradan qaldırılmasına dair monitorinq olunana Filial rəhbəri tərəfindən icrası məcburi olan göstəriş verilir.

6.5. Hazırlığın monitorinqinin nəticələri üzrə aşkar edilmiş pozuntuların aradan qaldırılmasına dair icrası məcburi olan göstərişin icrasına nəzarət Filial tərəfindən həyata keçirilir.

6.6. Hazırlığın monitorinqinin nəticələri üzrə aşkar edilmiş pozuntuların aradan qaldırılmasına dair icrası məcburi olan göstərişə əməl etməyən monitorinq olunanın yuxarı qurumlarına müraciət olunması və (və ya) plandankənar (növbədənkənar) hazırlığın monitorinqinin həyata keçirilməsi üçün əsaslandırılmış təqdimatla TMD direktoruna müraciət edilir.

6.7. Hazırlığın monitorinqinin nəticələri üzrə aşkar edilmiş pozuntulara və/və ya onların aradan qaldırılmasına dair icrası məcburi olan göstərişdə müəyyən edilmiş icra müddətlərinə monitorinq olunan tərəfindən tam və ya qismən riayət edilməməsinə görə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq tədbirlər görülür.

6.8. Filiallar tərəfindən hazırlığın monitorinqinin nəticələri və görülmüş tədbirlər barədə TMD-yə bu Qaydaların 5 nömrəli Əlavəsinə uyğun olaraq ildə 1 (bir) dəfə yanvar ayının 31-dək hesabat təqdim edilir.

**“Enerji Məsələlərini Tənzimləmə Agentliyi tərəfindən elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində fəaliyyət göstərən müəssisələrin payız-qış mövsümünə hazırlığının monitorinqi Qaydaları”na**

**1 nömrəli Əlavə**

**Elektrik enerjisi təchizatı sahəsində payız-qış mövsümünə hazırlığın monitorinqinin həyata keçirilməsi haqqında**
**QƏRAR**

Azərbaycan Respublikası Prezidentinin 16.07.2018-ci il tarixli 204 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası”nın 2.6.6-cı yarımbəndini və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24.02.2020-ci il tarixli 65 nömrəli Qərarı ilə təsdiq edilmiş “Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində payız-qış mövsümünə hazırlıq işlərinin aparılması Qaydası”nı rəhbər tutaraq

**qərara alıram:**

1. ____________________________________________
(monitorinq olunan subyektin ünvanı və adı)

elektrik enerjisi təchizatı sahəsində _______________ illər üzrə payız-qış mövsümünə hazırlıq işlərinin aparılması vəziyyətinin müəyyənləşdirilməsi üçün mövsümə hazırlığın monitorinqi həyata keçirilsin.

2. Hazırlığın monitorinqinin həyata keçirilməsi ____________________
(vəzifəli şəxslərin vəzifəsi, soyadı, adı, atasının adı)

____________________________________________tapşırılsın.

3. Hazırlığın monitorinqinin həyata keçirilməsinin əsası:

4. Hazırlığın monitorinqinin həyata keçirilməsi müddəti __ _____ 20___ il tarixdən __ (____) iş günü müəyyən edilsin.

**Rəis:**

**M.Y.**

**“Enerji Məsələlərini Tənzimləmə Agentliyi tərəfindən elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində fəaliyyət göstərən müəssisələrin payız-qış mövsümünə hazırlığının monitorinqi Qaydaları”na**

**2 nömrəli Əlavə**

**İstilik enerjisi təchizatı sahəsində payız-qış mövsümünə hazırlığın monitorinqinin həyata keçirilməsi haqqında**
**QƏRAR**

Azərbaycan Respublikası Prezidentinin 16.07.2018-ci il tarixli 204 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası”nın 2.6.6-cı yarımbəndini və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24.02.2020-ci il tarixli 65 nömrəli Qərarı ilə təsdiq edilmiş “Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində payız-qış mövsümünə hazırlıq işlərinin aparılması Qaydası”nı rəhbər tutaraq

**qərara alıram:**

1. ____________________________________________
(monitorinq olunan subyektin ünvanı və adı)

istilik enerjisi təchizatı sahəsində ______________ illər üzrə payız-qış mövsümünə hazırlıq işlərinin aparılması vəziyyətinin müəyyənləşdirilməsi üçün mövsümə hazırlığın monitorinqi həyata keçirilsin.

2. Hazırlığın monitorinqinin həyata keçirilməsi ____________________
(vəzifəli şəxslərin vəzifəsi, soyadı, adı, atasının adı)

____________________________________________tapşırılsın.

3. Hazırlığın monitorinqinin həyata keçirilməsinin əsası:

4. Hazırlığın monitorinqinin həyata keçirilməsi müddəti __ _____ 20___ il tarixdən __ (____) iş günü müəyyən edilsin.

**Rəis:**

**M.Y.**

**“Enerji Məsələlərini Tənzimləmə Agentliyi tərəfindən elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində fəaliyyət göstərən müəssisələrin payız-qış mövsümünə hazırlığının monitorinqi Qaydaları”na**

**3 nömrəli Əlavə**

**Qaz təchizatı sahəsində payız-qış mövsümünə hazırlığın monitorinqinin həyata keçirilməsi haqqında**
**QƏRAR**

Azərbaycan Respublikası Prezidentinin 16.07.2018-ci il tarixli 204 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası”nın 3.7.8-ci yarımbəndini və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24.02.2020-ci il tarixli 65 nömrəli Qərarı ilə təsdiq edilmiş “Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində payız-qış mövsümünə hazırlıq işlərinin aparılması Qaydası”nı rəhbər tutaraq

**qərara alıram:**

1. ____________________________________________
(monitorinq olunan subyektin ünvanı və adı )

qaz təchizatı sahəsində ____________________ illər üzrə payız-qış mövsümünə hazırlıq işlərinin aparılması vəziyyətinin müəyyənləşdirilməsi üçün mövsümə hazırlığın monitorinqi həyata keçirilsin.

2. Hazırlığın monitorinqinin həyata keçirilməsi ____________________
(vəzifəli şəxslərin vəzifəsi, soyadı, adı, atasının adı)

____________________________________________tapşırılsın.

3. Hazırlığın monitorinqinin həyata keçirilməsinin əsası:

4. Hazırlığın monitorinqinin həyata keçirilməsi müddəti __ _____ 20___ il tarixdən __ (____) iş günü müəyyən edilsin.

**Rəis:**

**M.Y.**

**“Enerji Məsələlərini Tənzimləmə Agentliyi tərəfindən elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində fəaliyyət göstərən müəssisələrin payız-qış mövsümünə hazırlığının monitorinqi Qaydaları”na**

**4 nömrəli Əlavə**

**Payız-qış mövsümünə hazırlığın monitorinqinin nəticələrinə dair**

**AKT № ____________**

«___»______________20__ il                                        ____________şəhəri (rayonu)

Monitorinq olunanın tabeliyində olan məsul subyektinin adı və ünvanı:

________________________________________________________

________________________________________________________

Monitorinq edənin (edənlərin) soyadı, adı, atasının adı və vəzifəsi:

________________________________________________________

________________________________________________________

Monitorinq olunanın səlahiyyətli nümayəndəsinin soyadı, adı, atasının adı və vəzifəsi:

________________________________________________________

________________________________________________________

Hazırlığın monitorinqinin həyata keçirilməsi müddəti (başlama və başa çatma tarixləri):

________________________________________________________

________________________________________________________

Hazırlığın monitorinqi zamanı aşkar edilmiş pozuntu və qüsurlar, tələbi pozulmuş normativ hüquqi aktın adı və struktur elementi:

________________________________________________________

________________________________________________________

________________________________________________________

________________________________________________________

________________________________________________________

________________________________________________________

________________________________________________________

________________________________________________________

________________________________________________________

________________________________________________________

________________________________________________________

________________________________________________________

________________________________________________________

________________________________________________________

Monitorinq olunanın iradı və ya etirazı (əgər varsa):

________________________________________

________________________________________

Akta əlavə edilən sənədlərin siyahısı:

________________________________________

________________________________________

________________________________________

________________________________________

Aktı tərtib edən monitorinq edənin (edənlərin) imzası:

| | |
|---|---|
| __________ | ____________________ |
| (imza) | (adı və soyadı ) |
| __________ | ____________________ |
| (imza) | (adı və soyadı) |

Monitorinq olunanın və ya onun nümayəndəsinin imzası:

| | |
|---|---|
| __________ | ____________________ |
| (imza) | (adı, soyadı və vəzifəsi) |

**“Enerji Məsələlərini Tənzimləmə Agentliyi tərəfindən elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində fəaliyyət göstərən müəssisələrin payız-qış mövsümünə hazırlığının monitorinqi Qaydaları”na**

**5 nömrəli Əlavə**

**20___ ildə Agentliyin _________ filialı tərəfindən elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində payız-qış mövsümünə hazırlığın monitorinqinə dair**

**HESABAT**

| S/S | Monitorinq olunanın adı və ünvanı | Məsul subyektin adı və ünvanı | Hazırlığın monitorinqinin keçirildiyi tarix (başlanğıc-son) | Hazırlığın monitorinqi zamanı aşkar edilmiş pozuntu və qüsurlar, tələbi pozulmuş normativ hüquqi aktın adı və struktur elementi | Hazırlığın monitorinqinin rəsmiləşdirilməsinə dair sənədlər | Monitorinq edənlərin adı və soyadı | Qeyd |
|---|---|---|---|---|---|---|---|
| 1. | | | | | | | |
| 2. | | | | | | | |
| 3. | | | | | | | |
| 4. | | | | | | | |